**Hüquq məsləhətxanamız**

***Samirə Musayeva***
Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

## Məcburi köçkünlərin gəlir vergisi

*Məcburi köçkünəm, özəl bir bankda işləyirəm və aylıq əməkhaqqım 700 manatdır. Məndən nə qədər gəlir vergisi tutulmalıdır?*

Kənan Bəylər

Vergi Məcəlləsinin 150.1.1-ci maddəsinə əsasən, muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər ödəmə mənbəyində vergini tutmağa borcludurlar. Vergi Məcəlləsinin 96.1-ci maddəsinə müvafiq olaraq, ödəmə mənbəyində vergi tutulduğu halda, vergitutma obyekti vergiyə cəlb olunan gəlirdir. Vergi Məcəlləsinin 98.1-ci maddəsində qeyd olunmuşdur ki, fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir - əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir. Vergi Məcəlləsinin 101.1-ci maddəsinə müvafiq olaraq aylıq gəlir 2000 manatadək olduqda 14% məbləğində gəlir vergisi tutulur.

Vergi Məcəlləsinin 102.4.5-ci maddəsində qeyd edilmişdir ki, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 55 manat məbləğində azaldılır. Bu güzəşt mənzil qanunvericiliyinə və ya mülki-hüquqi əqdlərə əsasən, ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmış şəxslərə şamil edilmir. Başqa sözlə desək, əgər məcburi köçkün mənzil qanunvericiliyinə və ya mülki-hüquqi əqdlərə əsasən ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmışdırsa, Vergi Məcəlləsinin 102.4.5-ci maddəsində nəzərdə tutulan güzəşt tətbiq edilmir.

Qanunvericiliyin müddəalarından göründüyü kimi, əgər siz mənzil qanunvericiliyinə və ya mülki-hüquqi əqdlərə əsasən ayrıca mənzil sahəsi əldə etməklə daimi məskunlaşmış şəxs deyilsinizsə, Vergi Məcəlləsinin 101.1-ci və 102.4.5-ci maddələrinə müvafiq olaraq: 90,3 manat ((700-55) x 14:100=90,3), qanunvericiliyə əsasən daimi məskunlaşmış şəxssinizsə, Vergi Məcəlləsinin 101.1-ci maddəsinə müvafiq olaraq, 98 manat (700 x 14:100=98) gəlir vergisinə cəlb edilirsiniz.